# "Terrorçu Xameneyi!"

## İranda hakim rejimə qarşı etirazların yeni dalğası başlayıb

**İranın molla rejiminin terrorçu fəaliyyəti beynəlxalq aləmdə olduğu kimi, daxildə də ciddi narazılıqlara səbəb olub. Azərbaycanın İrandakı səfirliyinə məlum terror hücumundan sonra əhalinin etirazları qeyd edilənlərin bariz sübutudur. Belə görünür ki, İran rejiminin terrorçu fəaliyyəti artıq xalqı da cana doyurub və etirazların miqyası gündən-günə genişlənir.**








Bütövlükdə İranı bürüyən və ölkənin ali dini lideri Ayətullah Əli Xameneyiyə qarşı üsyan davam edir. Tehranın terror siyasətinə qarşı çıxan, eyni zamanda acınacaqlı vəziyyətdə yaşamaqdan bezmiş əhali genişmiqyaslı nümayiş keçirərək "Süfrələrimiz boşdur, Xameneyi canidir!", "Ölüm olsun Xameneyiyə!", "Terrorçu Xameneyi" kimi şüarlar səsləndirirlər.

Qarşıdurma ölkədə gərgin və xaotik vəziyyət yaradıb. Hakimiyyət isə kütləvi etirazların qarşısını almaq üçün bütün repressiv tədbirlərə əl atır. Bir neçə gündür xalq İranın dörd müxtəlif hissəsində kütləvi yürüşlər keçirir. Onlar hökumət əleyhinə şüarlar səsləndirir və Xameneyinin istefa verməsini tələb edirlər.

Ümumiyyətlə, etirazların davam etməsi fonunda sakinlər üçün güllə səsləri adi hala çevrilib. Polisin işgəncəsi və zorakılığı nəticəsində etirazlarda xəsarət alaraq ölən 38 yaşlı Əşrəf Behruzinin yaxınları bildirib ki, 4 polis əməkdaşı axşam saatlarında yaşadıqları evə girərək heç bir səbəb gətirmədən Əşrəfin bölməyə getməli olduğunu deyiblər. Polislər zor tətbiq edərək uşaqlarının gözü qarşısında onun qollarını qandallayıb bölməyə aparıblar. Ölən şəxsin anası Behnaz Behruzi dini liderə və daxili işlər naziri Əhməd Vahidiyə müraciət edib. "Görün İranda, Tehranda nələr baş verir. İranın daxili işlər nazirinə üzümü tutub deyirəm. Ar olsun sənə və sənin polis əməkdaşlarına".

Bu arada İranın sünni məzhəbli etnik bəluçların kompakt yaşadığı Sistan və Bəluçistan əyalətinin mərkəzi Zahidan şəhərində tanınmış ağsaqqallardan olan Hacı Xudarəhim Mənduzehinin hökumət məmurları tərəfindən öldürülməsinə qarşı da etirazlar ən gərgin səviyyəyə çatıb. Əyalətdə onlarca etirazçı həbs edilib. Saxlanılanlar arasında çox sayda yeniyetmənin olduğu bildirilir. Mülki geyimli təhlükəsizlik məmurlarının etirazçılara qarşı amansız davrandığı, xüsusilə Zahidan şəhərində həbs edilənlərin vəhşicəsinə döyüldükləri bildirilir.

Etiraz akisyaları fonunda ölkədə hüquq-mühafizə sistemi iflic vəziyyətə düşüb. Qeyd edilir ki, İranda güc strukturları da əsas işlərini unudublar və etirazçıların qarşısının alınması yönündə canfəşanlıq edirlər.

ABŞ-də yerləşən İnsan Haqları Fəalları Xəbər Agentliyi açıqladığı son hesabatında bildirib ki, İranda hökumət əleyhinə nümayişlər başlayandan bəri ən azı 527 nəfər həlak olub. Qrupun məlumatına görə, onların arasında 71 azyaşlı var. Ümumilikdə 20 minə yaxın insanın həbs edildiyi bildirilir. Onlardan 100-dən çoxu ölüm cəzasına məhkum edilib. Artıq bir neçə nümayişçi edam olunub. İran hakimiyyəti ölənlərin və həbs olunanların ümumi sayı barədə məlumat vermir.

ABŞ Avropa İttifaqına və Böyük Britaniyaya qoşularaq və etirazçılara qarşı təqiblərə cavab olaraq, İrana yeni sanksiyalar tətbiq edib. ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays mətbuat konfransı zamanı bildirib ki, sanksiyalar İran rejiminin "insan haqları ilə əlaqədar cavabdehliyini təşviq etmək məqsədi daşıyır.

Ümumiyyətlə isə, ötən ilin sentyabrından başlayan aksiyaları yatıra bilməyən hökumət etirazçıları edam etməklə cəmiyyətdə qorxu yaratmağa çalışır, bununla insanların azadlıq hərəkatını boğmaq, haqq səslərini susdurmaq istəyir. Hər zaman insanları qorxudaraq hökmranlıq etməyə çalışan İran rejimi vətəndaşlarının hüquq və haqlarını tapdalayır, azadlıqlarını əlindən alır. Bunu son illərdə İranda edama məhkum olunanların statistikasından da görmək mümkündür. Hətta rejimin daxilindəkilər də gerçəkliyi artıq görür, insanların günahsız yerə öldürüldüyünün şahidi olurlar. Amma İran rəsmiləri hələ ki tutduğu yoldan, mövqedən dönməməkdə israrlıdırlar.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 31 yanvar.- S. 9.